# Ümmanın sahili Sahil



İnsanı inam yaşadır. Bəzən həqiqətin nə qədər acı olmasına rəğmən inam hissi insanı tərk etmir. Bu insanın doğulmayacağını bilə-bilə ümid qığılcımı ilə yaşayır insan. Bəlkə də bu xəyal dünyasının insan ruhuna çox yaxın olması ilə əlaqədardır. Axı xəyallar da insanın gerçək düşüncələrindən "doğur".

İnsan üçün itki həmişə narahatçılıq yaradır. Ələlxüsus insanın insan itkisi, daha doğrusu, əzizini itirmək acı bir hiss, həyatının qara nöqtəsidir. Nöqtəsi ona görə ki, bu geri gəlməz bir itkidir və bu itki insanın bütün varlığına həm cismani, həm mənəvi acıdır. Ovlad itkisi yaşayanlar bu acının dəmək olar ki, pik nöqtəsindədirlər: Şəhla xanım - mərd və mərdanə xanım Şəhla ana kimi...

Şəhla xanımın övladı - Sahil Şirinov 2016-cı ilin Aprel döyüşlərinin şəhididir.

Sahil Həsrət oğlu Şirinov 1992-ci il iyun ayının 24-də Qəbələ rayonunun Bum qəsəbəsində anadan olub. O, 2010-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, 2014-cü ildə məktəbi motoatıcı tağım komandiri ixtisası üzrə bitirərək leytenant hərbi rütbəsi alıb. Xidməti dövründə həmişə nümunəvi hərbçi kimi tanınan bu vətənpərvər oğul torpaqlarımızın işğaldan təmizlənməsi üçün hər an döyüşə hazır idi. Baş verən hadisələr də bu mənəvi zənginliyi və əsil vətənpərvərliyi bir daha sübut etdi.

2016-cı ildə baş verən Aprel döyüşləri zamanı Sahil Şirinov aprelin 4-də Talış kəndi uğrunda gedən döyüşlərdə şəhid oldu...

Onun ölümünə ya atası Həsrət qardaşımız, ya da anası Şəhla bacımız inana bilmir. Sahilin atasına dediyi sözlər onun ölümsüzlüyünün bariz nümunəsidir. "Nədən narahat olursan sən axı, deyirsən birdən mənə nəsə olar? Ürəyini sıxma ata, mən ölüm üçün doğulmamışam. Düşmənə dağ çəkmək üçün bu həyata gəlmişəm. Sən məğər aciz oğul böyütmüsən?"

Şəhidlər əbədi yaşam qazanırlar, onlar ölməzdirlər! Məhz Sahil də bu zirvənin - qəhrəmanlığın ən pik nöqtəsində, həm də vətənpərvər insanların ürəklərində yaşayır.

Şəhla xanım bu illər ərzində heç zaman Sahilini ölmüş kimi düşünməyib. Həyətin, evin qapısını heç vaxt kilid vurub bağlamaz, oğlum gələcək deyə. Evin qapısının açarının birinin Sahilin cibində olduğunu söyləyən və onun nə vaxtsa qapıdan içəri girəcəyinə inam hissi ilə yaşayır Şəhla xanım. Deyir ki: "Bu Sahilin stəkanıdır. Hər gün süfrəmizdə onun yemək payını ayrıca qoyuram. İnanıram ki, balam ölməyib, gələcək!.."

Sahil nişanlı bir gənc idi. Əzizləri onun toyunu həsrətlə gözləyirdilər. Lakin baharın ən gözəl çağında al qırmızı Azərbaycan Bayrağını özünə libas seçərək doğma obasına döndü Sahil... Arzular çiləndi, baharın əlvan gülləri könüllərdə qara rəngə boyandı... Sahilin əzizləri və bütün vətənsevər Qəbələ camaatı məzarıstana - Sahilin son görüşünə tələsdi...

Ümman sonsuzluqdur, sərhədi, sahili olmayan bir məcradır. Sahil isə bu həyatın nəsillər şəcərəsində hər bir azərbaycanlının qan yaddaşında yaşayacaq biri...

**BİBİXANIM.**

# Qəbələ - İdman Paytaxtı



Rayon Heydər Əliyev Mərkəzinin təşəbbüsü, Uşaq-Gənclər İdman-Şahmat Məktəbi, Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Qəbələ - İdman Paytaxtı 2025" layihəsi çərçivəsində tədbir keçirilib. Tədbirdə çıxış edənlər "Qəbələ - İdman Paytaxtı 2025" layihəsinin region üçün mühüm əhəmiyyət daşıdığını vurğulayaraq, bu təşəbbüsün həm idmanın inkişafına, həm də gənclərin və cəmiyyətin sağlam həyat tərzinə keçidinə ciddi töhfə verəcəyini qeyd etmişlər. Gənc zəka sahiblərinin iştirakı ilə keçirilən nümayiş xarakterli oyunlar iştirakçılar tərəfindən maraqla izlənilib.

# "Zəhmətkeşlərə" zəhmətkeş qayğı olarsa

**Həyatda insan üçün sənət və peşələrdən ən maraqlısı ilk baxışda asan görünsə belə, ən çətini zərgərlik və arıçılıqdır. Hər iki peşə zəriflik və daha çox diqqət tələb edən peşədir. Ancaq onu da qeyd edək ki, zərgərlik məhsulları keyfiyyətli olmadıqda, təkrar hazırlanmaq xüsusiyyəti vardır; əlbəttə, ikiqat zəhmət bahasına olsa belə. Arıçılıqda isə canlı qüvvədən istifadə olunduğu üçün ən adi diqqətsizlik itkiyə yol verməkbu canlı, sehrli varlıqların məhvi ilə nəticələnir. Bu isə insan üçün həm mənəvi, həm də maddi ziyanla nəticələnir. Elə buna görə də, peşəsinin sirlərini mükəmməl öyrənən insanlar həmişə cəmiyyət arasında məxsusi hörmət qazanarlar. Arıçılıqla məşğul olan, istehsal olunan məhsulun keyfiyyətinə görə təkcə öz ölkəmizdə deyil, başqa xarici ölkələrdə belə uğur qazanan həmyerlimiz İlqar Cəlalovla bu qədim peşənin sirləri, uğurları haqqında söhbət apardıq. Bu söhbətimizdən - müsahibəmizdən bəzi məsələləri oxucularımıza təqdim edirik. İlk növbədə İlqar Cəlalov haqqında oxucularımıza məlumat vermək istərdik.**

**İlqar Cəlalov 1962-ci ildə rayonumuzun Bunud kəndində doğulmuşdur. 1979-cu ildə orta məktəbi bitirdikdən sonra Rusiyada - Voronej Meşə Texniki Universitetinin meşə təsərrüfatı mühəndisi ixtisası üzrə təhsil almışdır. Onun bu sahədə uzunmüddətli əmək təcrübəsi vardır. Ancaq arıçılıq peşəsi onun üçün hələ gənclik illərindən maraqlı idi. Bəlkə də bu arzu onun yaşadığı məkanın zəngin təbiətindən və təbiətə gözəllik bəxş edən bu ecazkar həyat tərzinə malik arıların təbiətə, canlı aləmə xeyir və onları tam mənada öyrənmək istəyindən yaranmışdır. Seçdiyi peşə də, aldığı təhsil də arıçılıq sənətinin daha da mükəmməl öyrənilməsinə, bu sehrli həşəratların hazırladıqları məhsulun əvəzolunmaz qida məhsulu olmasının öyrənməsinə bir təkan olmuşdur. Axı arılar öz pətəklərini hələ qədimlərdən meşələrdə, ağac "koğuşları"nda qurardılar. Bir sözlə, bu peşəni onun daha mükəmməl bilməsində meşəçiliyin və meşə təsərrüfatının sirlərini ali təhsillə, elmi biliklərlə öyrənməsi əsaslı rol oynamışdır. Məhz buna görə də İlqar Cəlalovun arıçılıq təsərrüfatında istehsal etdiyi məhsul xarici ölkədə özü belə iştirak etmədən öz naturasına, keyfiyyətinə, ətrinə görə seçilmiş və qızıl medala layiq görülmüşdür.**

***- İlqar müəllim, arıçılıq və arıçılıq məhsulu təsərrüfatı dedikdə ilk baxışda bu çətinliklərdən uzaq, zəhməti az bir peşə olduğu anlamı yaranır. Bu haqda nə deyə bilərsiniz?***

- İlk baxışda arıçılıq asan görünə bilər. Bildiyimiz kimi, arıçılıq qədim bir peşədir. Bu peşəyə ta qədimdən Misirdə, Romada, Yunanıstanda daha çox diqqət olmuşdur. Arılar ağaclarda, üzümlüklərdə, bir sözlə, təbiət qoynunda öz evlərini (pətəkləri) tikir və öz zəhmətləri ilə təbii məhsullar yetişdirirdilər. Dünyanın bütün dinlərində arı insana fayda gətirən zəhmət və bərəkət rəmzi olan müqəddəs həşəratdır.

Arıçılıq arı məhsullarından faydalanaraq arıya qulluq, bəsləmə, qoruma, onun daha çox səmərə verməsi istiqamətində fəaliyyətdir. Arıçılıq müqəddəs peşədir. Çünki insanların sağlamlığı üçün məhsullar hazırlanması və bu məhsulları hazırlayan arıların qorunması və artırılması işi ilə məşğul olur. Arıçılıqla məşğul olan hər kəs bu peşənin özünəməxsus çətinliklərini bilir. Elə məntiqlə düşünəndə də arı məhsullarının keyfiyyətli olması üçün arılara düzgün qulluq və bu işin məsuliyyətinin əsas olduğu hər kəsə aydın olur.

***- Arı məhsulları və onların əhəmiyyəti... Bəs arıların kənd təsərrüfatında xüsusi "xidməti" olması haqda oxucularımıza məlumat verə bilərsinizmi?***

- Arılar dünyanın ən böyük loğmanı, onun istehsal etdiyi məhsullar isə sağlamlıq üçün əvəzsiz dərmandır. Arı məhsulları insan orqanizmi üçün qida, sağlam və uzun ömür yaşamaq üçün çox vacib nemətlərdir. Arılar güləmdən süd hazırlayır, xüsusi vəzlərdən mum ifraz edir, şanı toxuyurlar. Arı məhsullarının tərkibi zülal, karbohidrat, mineral maddə, ferment və hormonlarla zəngindir. Müxtəlif bitkilərin çiçəklərindən yığılan arı məhsulları yüksək kalorili qida və müalicəvi əhəmiyyətə malikdir. Həmin məhsullar bəsit kimyəvi quruluşa malik olduğuna görə orqanizm onu tez mənimsəyir və asan parçalanır. Arı məhsulları dedikdə yalnız qida düşünülməməlidir. Bu məhsullardan müalicə məqsədləri üçün də istifadə olunur; bal,



mum, bərəmum (propolis), çiçək tozcuğu, güləm, arı südü, arı zəhəri, mum güvəsi ekstraktı və erkək arı süfrələrinin ekstraktı. Bal arı məhsullarının ən zəifi sayılır. Arı məhsulları insan bədəni tərəfindən 100 faiz mənimsənilir və tullantı vermir. Çünki bu məhsullar 99 faiz insan qanının plazmasına yaxındır. Arıların istehsal etdiyi propolsin təbiətin ən güclü antibiotiklərindən biridir. Arı 40 gündən az yaşayır, ən azı 1000 gülə baş çəkir və bir çay qaşığından az bal istehsal edir. Həmçinin balın bitmə tarixi yoxdur. Arı südü yaşlı və ağır xəstəlik keçirmiş insanlarda sağlamlığın bərpasında, mədə-bağırsaq, ürək-damar xəstəliklərində çox əhəmiyyətlidir.

Mən bir mütəxəssis kimi arıçılıq məhsullarımı öz emalatxanamda yığıb, toplayıram və onlardan ailəm və yaxın insanlara istifadə üçün verirəm, həmçinin, ehtiyacı olan insanlara da satıram.

Arıların entomojil (həşəratla tozlanma) bitkilərin tozlanmasında verdiyi xeyir mövsüm ərzində hasil etdiyi bütün məhsulların dəyərindən bir neçə dəfə çox olur. Arılar kütləvi uçuş keçirərək bitkilərin 80-90 faizinin tozlanmasını təmin edirlər. Başqa həşəratların isə 10 - 12 faizindən az hissəsi tozlanmada iştirak edir.

***- İlqar müəllim, respublikamızda arıçılıq haqqında qanunvericilik varmı və əsas məqsəd nədir?***

- Bəli, respublikamızda arıçılıq haqqında qanunvericilik vardır. Arıçılıq haqqında Azərbaycan Respublikasının Qanunu var və bu qanun ölkəmizdə arıçılığın təşkilinin hüquqi və iqtisadi əsaslarını müəyyən edir,




bu sahədə münasibətləri tənzimləyir

Əsas məqsəd isə arıçılıq təsərrüfatını bu qanunlar və normativ hüquqi aktlar əsasında inkişaf etdirməkdir.

***- Arıçılıq sahəsində dövlət tənzimləməsinin əsas istiqamətləri haqda oxucularımıza nə deyə bilərsiniz?***

- Arıçılıq sahəsində dövlət tənzimləməsinin əsas istiqamətləri "Arıçılar haqqında Azərbaycan Respublikasının əsas qanununun ikinci fəsil, 5-ci maddəsində ayrı-ayrı bölümlərdə izahlı şəkildə verilmişdir. Hər bir arıçı təsərrüfatı rəhbəri və maraqlanan şəxslər bu qanunu oxuya bilərlər.

***- Məlumdur ki, hər bir canlıda müəyyən xəstəliklər meydana çıxa bilər. Maraqlıdır, arı xəstəlikləri mövcuddurmu?***

- Əlbəttə. Arılar arasında da müxtəlif cür xəstəliklər vardır. Nozematoz - parazit xəstəliyi, virus xəstəlikləri, bakterial, varrotoz, yoluxucu süfrə (yaman və möhürlü çürümə) xəstəlikləri və s. arı ailələrinin məhv olması ilə nəticələnir. Buna görə də arı ailələrini qışdan yaza sağlam və gümrah çıxarmaq üçün lazımi tədbirlər görülməli və təsərrüfata ziyan dəyməməsi üçün arıların xəstəliklərdən uzaq olmasına çalışırıq. Arıçılıqla məşğul olan hər kəs arı xəstəliklərini tanımalıdırlar və arı xəstəliklərinin müalicəsində lazımi dərmanlardan istifadə etməlidirlər.

***- Arıçılıq təsərrüfatının məhsullarının dövriyyəsinə nə zaman icazə verilməsi də oxucularımız üçün maraqlı olar.***

- Azərbaycan Respublikasına idxal olunan arıçılıq məhsulları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş idxal sağlamlıq aktına malik olmalıdır. Arıçılıq məhsullarının qablaşdırılması və etiketlənməsi "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq həyata keçirilir. Dövriyyəyə buraxılan məhsullar arıçılıq məhsullarına olan tələbata və digər məlumatlara əsaslanır.

***- İlqar müəllim, bal arıları necə mühafizə olunur?***

- Arılar ilin bütün fəsillərində mühafizə olunmalıdır. Xüsusilə qış mövsümündə. Açıq havada qışlayan arı ailələri küləkdən qorunmalı, qışda pətəklərin üstündəki qar təmizlənməli, qış fəslində arıların yemlənməsi, pətəklərin xəstə və ölü arılardan təmizlənməsi, onların xəstəliklərdən qorunması üçün aparılan tədbirlər onların mühafizə olunması deməkdir. Həmçinin dərmanlanma aparılarkən məhsullara ziyan dəyməməsi də diqqət yetirilməlidir. Bir sözlə, arıçılıqla məşğul olan hər kəs bu təsərrüfatın inkişafı və keyfiyyətli

(Ardı 7-ci səhifədə).